MÜSTƏQİL ICTİMAİ - SİYASİ QƏZET

AZAD AZƏRBAYCAN



№ 081 (1321)
19 Dekabr 2008 22:29

# Obamanın antiböhran planı Amerika iqtisadiyyatını qismən xilas edəcək

**Qərb ekspertləri vəziyyəti belə dəyərləndirirlər**

"ABŞ-ın yeni seçilmiş prezidenti Barak Obamanın irəli sürdüyü Amerika iqtisadiyyatının stimullaşdırılması üzrə tədbirlər paketinin səmərəliliyi onun lazımi məqsədyönlülüyündən asılı olacaq", - beynəlxalq ekspertlər hesab edirlər.

"Obamanın stimullaşdırıcı paketinin sonrakı dəstəyi lazımi şəkildə məqsədyönlü olsa, o səmərəli olacaq", - İraq Mərkəzi Bankının valyuta siyasəti üzrə baş müşaviri, Beynəlxalq Valyuta Fondunun keçmiş əməkdaşı Uorren Kots (Warren Coats) bildirib.

Prezident Obama ABŞ-dakı maliyyə böhranının aradan qaldırılması məqsədilə yolların və körpülərin təmiri, məktəblərin müasirləşdirilməsi, alternativ enerji mənbələri sahəsinin, orta amerikalı üçün vergi yükünün azaldılması hesabına, 2,5 mln. iş yerinin saxlanılması və yaradılmasını nəzərdə tutan plan təklif edir.

Bu həftə Obama gələcək iqtisadi komandasında vəzifələrə bütün əsas namizədlərin adlarını açıqlayıb və indi onları Senat təsdiqləməlidir. Maliyyə naziri vəzifəsinə Tim Geytner (Tim Geithner) - Nyu-York Federal Ehtiyat Bankının keçmiş rəhbəri, Milli İqtisadi Şuranın rəhbəri vəzifəsinə - Larri Sammers (Larry Summers) - keçmiş maliyyə naziri təyin edilib.

Britaniyanın iqtisadi tədqiqatlar üzrə Capital Economics Konsaltinq Şirkətinin iqtisadçısı Con Hiqqinsin (Warren Coats) rəyinə görə, ABŞ iqtisadiyyatı hələ də ağır problemlərlə qarşılaşır, vergilər və dövlət xərclərinin azaldılması isə, bu problemlərin öhdəsindən gəlməyə qismən kömək edəcək.

Kotsun sözlərinə görə, Amerika iqtisadiyyatı istehlakdan sərmayələrə son dərəcə zəruri olan keçidə dəstək göstərmək üçün maliyyə sektoruna etibarın bərpasına ehtiyac duyur. "Ailələrə daha çox yığmaq və daha az xərcləmək, maliyyə sektoruna isə, sərmayələrin yatırılması zamanı borc vəsaitlərindən istifadəni azaltmaq və kreditləşdirmə standartlarını yüksəltmək lazımdır", - Kots bildirib.

Onun sözlərinə görə, problem ondan ibarətdir ki, zəruri düzəlişlər çox tez edilərsə, iqtisadiyyat resessiyaya atıla bilər. Federal Ehtiyat Sistemi, ABŞ Maliyyə Nazirliyi, Federal Bank Əmanətlərinin Sığortalanması Korporasiyası və digər orqanlar bazarın likvidliyinin təmin edilməsi üçün kifayət qədər aqressiv addımlar atıb və ödəməqabiliyyətli banklara əlavə kapital yeridiblər. Kots hesab edir ki, bu tədbirlər bank və kreditləşdirmə bazarını yaxın aylarda normal vəziyyətə gətirməyə kömək etməlidir.

Onun rəyinə görə, risk beladir ki, resessiyanın yumşaldılması üzrə tədbirlər pis müəssisə və düşüncəsiz borclananlarda bazar intizamnı (mənəvi risk) azalda və yeni qabarcıqların yaranmasına gətirə bilər.

"Bundan əlavə, yaxın bir neçə ildə, xüsusilə də pensiya təminatı və tibbi xidmət öhdəliklərindən irəli gələn dövlət büdcəsi kəsirinin azaldılması üçün zəruri olan səylərin ağırlaşması riski var", - Kots bildirib.

Kornel Universitetinin (ABŞ) makroiqtisadiyyat professoru İuan Azis (Iwan Azis) hesab edir ki, stimullaşdırıcı tədbilər həm müsbət, həm də mənfi nəticəli ola bilər.

## ƏSAS XƏBƏRLƏR

SİYASƏT



Rusiya-Ukrayna qaz müharibəsi davam edir

GÜNDƏM



Türkiyədə azərbaycanlıların soyqırımı haqqında fotosərgi açılıb

TARİX



Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının iclası öz işinə başlayıb

## SON XƏBƏRLƏR

- **Dünyanın ən bahalı İKT şirkətlərinin yarısı Azərbaycandadır**
- **OPEC neft istehsalını 2,2 milyon barrel azaldıb**
- **Paytaxtda binaların tikintisinə ciddi fikir verilməlidir**
  **Çingiz İsmayılov: "Tıxacların yaranmasına və ekoloji problemlərə səbəb olan çoxmərtəbəli binaların inşasına icazə verilməməlidir"**
- **Müxalifət düşərgəsində büdcədən maliyyələşmə savaşı davam edir**
  İqbal Ağazadə: "Biz problemlərin dürüst həllinə çalışırıq"

## ƏLAQƏ

- **Baş redaktor**
  Pərvanə Əliyeva
- **Ünvan**
  Bakı şəhəri
  Üzeyir Hacıbəyov 32
  Tel: 492-23-18; 492-49-35
  E-mail: azadazerb@bakinter.net

- **Hesab Nömrəsi**
  Rabitəbank SKB
  Kod: 506399
  Vöin: 9900001063
  M/h: 0137010006031
  SWIFT: RBTAAZ
  H/h: 3308700039
  Vöin: 150036467

## ARXİV

Dekabr 2008

| B.e. | Ç.a. | Ç. | C.a. | C. | Ş. | B. |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

## REKLAM

ƏN SON MƏLUMATLARI BİZDƏN OXUYUN




## MƏZƏNNƏ

## HAVA

Bakı +20°C

Cəlilabad +19°C

Gəncə +23°C

Qazax +21C

Quba +22°C

Qusar +20°C

Lənkaran +24°C

Masallı +23°C

Naxçıvan +25°C

"Məsələ ondadır ki, maksimal faydalı və minimal əlavə səmərəli qərar tapmaq lazımdır", - Azis bildirib.

Onun sözlərinə görə, Obamanın siyasətinin iki istiqaməti var: qısamüddətli və uzunmüddətli. Qısamüddətli siyasət iki istiqamətlidir: 2,5 mln. iş yerinin yaradılması və orta təbəqəyə kömək etməklə, iqtisadiyyatın real sektorunun stimullaşdırılması və sakit olmayan maliyyə sektorunun xilas edilməsi.

Azis hesab edir ki, fiskal kəsirin artması qısamüddətli siyasətin arzuolunmaz səmərəsi ola bilər. Azisin sözlərinə görə, Obmanın "xərclərin azaldılmasının" zəruriliyi haqqında verdiyi bəyanat uzunmüddətli siyasətdir.

Obama federal büdcəyə dəyişikliklərin edilməsinə nail olmaq niyyətində olduğunu səsləndirib. ABŞ-ın yeni seçilmiş prezidenti bəyan edib ki, eyni vaxtda kəsirin artması və batan iqtisadiyyatla qarşılaşarkən, büdcə islahatları hərəkət variantı deyil, zərurətdir.

Azisin sözlərinə görə, belə siyasətin səmərəliliyi xeyli dərəcədə realizədən və qısamüddətli problemlərin həlli paketlərinin hər biri üzrə dəqiq addımlardan asılıdır.

Azis hesab edir ki, təklif edilən proqramların hamısı olmasa da, əksəriyyəti ABŞ iqtisadiyyatının gələcək tənəzzülünün qarşısını alacaq. Azisin bildirdiyinə görə, başlıca məqam deflyasiyanın qarşısının alınmasıdır.

"İqtisadiyyat deflyasiya mərhələsinə daxil olarsa, bu vəziyyətdən çıxmaq üçün uzun zaman lazım olacaq. 1990-cı illərin əvvəlində Yaponiyada başlamış resessiya buna nümunədir", - Azis bildirib.

Şamaxı +19°C
Şəki +21°C
Kürdəmir +22°C
Füzuli +23°C
SAYĞAC
3355
created by dream art design studio